

**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

# Tofiq Hüseynov -100

# “Hər kim yüz il yaşamasa...”

***...Göyün üzü tər-təmiz, səma aydın idi. Bir dəstə Göyərçin havada qanad çalır, sanki haradansa xoş müjdə gətirirdilər. Əlləri arxasında çarpazlanmış ağsaqqalı, nurani bir qoca qış fəslinin bu əsrarəngiz mənzərəsinin seyrinə dala-dala asta addımlarla meydançada gəzinir, hərdən bir ətrafına nəzər salıb xəyala dalır, sonra yoluna davam edirdi. Meydançanın sağ qanadında isə bağça uşaqlarından bir qrupu şən-şən oynayır, şənlənirdilər. Diqqətlə fikir verən olsaydı, qocanın ürəyindən deyəsən, bu sözlər keçirdi: “Qoy həmişə səmamız aydın, güzəranımız xoş olsun. Yaxın-uzaq ellərdən müjdə gətirən bu göyərçinlərin qanadı möhkəm, davamlı olsun, körpələr şən, qayğısız böyüsün. Dünyada dava-dalaşa bir dəfəlik nöqtə qoyulsun, İlahi..”***

Onu xeyli vaxt idi ki, tanıyırdım. Bilirdim ki, təcrübəli pedaqoq olmaqla yanaşı həm də Gəncə şəhəri Nizami rayonu Veteranlar Şurasının sədridir. Həmçinin İkinci Cahan savaşının iştirakçısıdır. Keçmiş Sovet ordusu sıralarında mərdliklə vuruşmuş, ad-san qazananlardan biri olmuşdur. Gəzişdiyi yerdə ona yaxınlaşıb hal-əhval tutdum. Məqsədimi deyəndə nurani çöhrəsinə bir qızartı çökdü. Dedi ki, şükür Allaha məni də, iş yerimi də yaxşı tanıyırsan. Buyur gəl. Ayaqüstü nə söhbət olacaq? Sənədlərim iş yerindədir. Haçan təşrif buyursan, mən sizin qulluğunuzda hazır. Səhər görüşəcəyimi müəyyən edib ayrılırıq.

Səhər günortaüstü iş yerinə keçmiş cəbhəçi ilə üz-üzə oturmuşduq. Dəmir seyfi açıb oradan bir qovluq çıxartdı. Saralmış vərəqlər onun həyat yolunun canlı şahidi kimi dilə gəldi...

***1941-ci ilin yayı... Cəbhəyə yola düşəndə Tofiq Hüseynov orta təhsilini yenicə başa vurmuşdu. Tofiq Hüseynovun doğulub boya-başa çatdığı Gəncə şəhəri və ətraf bölgələrdən igid oğullar da cəbhəyə yola düşürdülər. Gənc Tofiq düşünürdü ki, Vətən səmasını qara buludlar alan bir zamanda qeyrətli oğullara arxada qalmaq yaraşmır. Şəhərdən, doğma yerlərdən ayrılanda atası Paşa müəllim, məhəllə ağsaqqalları ona xeyir-dua verib deyirdilər:***

***- Vətən yolunda, torpaq uğrunda şəhid olmaq belə özü xoşbəxtlikdir. Sən çalış ki, öz elobanın adını uca tutasan, qəhrəman kimi geri qayıdasan.***

Biz sənin zəfərlərlə dolu yolunu hər gün gözləyəcəyik. Gəncəli balası artıq Gürcüstanın Qori şəhərinə gəlib çıxmışdı. 1942-ci il ilə qədər bu şəhərdə hərbi təlim-məşq keçdikdən sonra qızğın döyüş nöqtələrinə göndərilmişdir. 1942-ci il iyul ayının 26-da ilk dəfə Qafqaz dağlarında alman faşistləri ilə üz-üzə gəlib döyüşən ordunun tərkibində Maruxanski aşırımının azad edilməsində fəallıq göstərib. O, 1941-1945-ci il müharibəsində Kazak alayının 45-ci qvardiyasında süvari kimi at belində Qafqazdan Avropanın dörd ölkəsinə kimi yol keçib. Onlarla şəhər, kənd və qəsəbələrin düşməndən təmizlənməsində igidlik nümunələri nümayiş etdirib. Xidməti dövründə 20 medal və xeyli sayda təşəkkürnamələrlə təltif edilib. Özü danışır:

- Tərkibində xidmət etdiyim alay Şimali Qafqaz və Zaqafqaziya qoşun hissələrindən təşkil olunmuşdur. Biz Qara dəniz donanması ilə birlikdə Don və Baş Qafqaz dağ silsiləsi arasında, Qafqaz dağlarında və Qara dəniz sahilində ağır müdafiə döyüşlərində iştirak edirdik. Düşmənin irəliləməsinə imkan vermirdik. Biz addım-addım irəli Qərbə doğru gedirdik. 1944-cü ilin iyul ayının 13-dən avqustun 29-na qədər bizim qoşunlar faşistlərin “Şimali Ukrayna” ordu qrupunu böyük məğlubiyyətə uğradaraq Lvovu, Ukraynanın qərb vilayətlərini, Polşanın cənub-şərqini azad etdi. Visla çayının arxada qoyub Sandomir rayonunda mühüm operativ dayaq məntəqəsini tutdu. İki gün sonra 1-ci Çexoslovakiya ordu korpusu ilə birlikdə Şərqi Karpat dağlarını keçib Çexiyanın bir hissəsini düşməndən təmizlədik. Beynəlmiləl tərkibdə vuruşan ordularımız sentyabrın 8-də rumın-bolqar sərhəddini aşdılar. Bu orduların sırasında tərkibində vuruşduğum hissəmiz də xüsusilə fərqlənib. Fəxr edirəm ki, Rumıniya, Çexoslovakiya, Yuqoslaviya, Avstriya və başqa Avropa şəhərlərinin alman-faşist işğalçılarından təmizlənməsində, məğlubiyyətində zərrə qədər də olsa mənim də əməyim var. 1945-ci ilin mayında qələbə sorağını Vyana şəhərində aldıq və bayram etdik...

***...Tofiq müəllim danışır. Danışdıqca da nurani sifətinin ifadəsi tez-tez dəyişir, gah səma kimi tutulur, gah səhər kimi açılır, gah da kiməsə bəslədiyi rəğbət hissi üz qırışlarında şölələnir, gah da hələ gənclik illərini xatırlayırmış kimi işıqlı gözləri yol çəkir.***

O, danışdıqca elə bilirəm ki, haradasa yaxın və uzaqlardan top-tüfəng səsi qulaqlarımda əks-səda verir. Qəflətən səsi həzinləşir. Deyəsən, bu gün xəyali olaraq keçmiş döyüş dostları ilə görüşüb vidalaşır. Ötən məşəqqətlə dolu günləri bir daha yada salır, həmin anları yaşayır. Mənə elə gəlir ki, o, vətənin azadlığı, xalqın gələcək səadəti, firavanlığı uğrunda canını fəda edən silahdaşlarını xatırlayır, neçə şəhid məzarını göz önünə gətirir.



Alman faşizminə qarşı süvari ordunun tərkibində vuruşan, dəfələrlə ölümlə üz-üzə gələn Tofiq Hüseynov barıt, səngər qoxulu əsgər libasını hələ də saxlayır. Ona elə gəlir ki, keçmiş müharibənin odunu, alovunu, cəbhə illərinin dəhşətlərini özünə hopdurmuş canlı şahiddir bu paltar. Hərdən əyninə geyir bu paltarı, yüz-yüz səngərin tozu hopmuş bu yadigar libasını. Bu zaman cəbhə xatirələrini, müharibədəki uğurlarını həvəslə danışır nəvələrinə.

***Bir də ehtiyatda olan baş leytenant Tofiq Hüseynovun qanlı-qadalı illərdən əmanət, oddan-alovdan keçmiş cəbhə xatirələri toplanmış gündəliyi qalır. Vərəqlər sapsarıdır. Söz çətinliklə oxunur. Hərdən yaddaşında qalan izlər haradasa düyünə düşüb qırılanda bu gündəlik onun köməyinə çatır, olub keçənləri ürək ağrısı ilə yada salıb xatırlamağa kömək edir...***

***Onu xeyli vaxt idi ki, tanıyırdım. Bilirdim ki, təcrübəli pedaqoq olmaqla yanaşı həm də Gəncə şəhəri Nizami rayonu Veteranlar Şurasının sədridir. Həmçinin İkinci Cahan savaşının iştirakçısıdır. Keçmiş Sovet ordusu sıralarında mərdliklə vuruşmuş, ad-san qazananlardan biri olmuşdur. Gəzişdiyi yerdə ona yaxınlaşıb hal-əhval tutdum. Məqsədimi deyəndə nurani çöhrəsinə bir qızartı çökdü. Dedi ki, şükür Allaha məni də, iş yerimi də yaxşı tanıyırsan. Buyur gəl. Ayaqüstü nə söhbət olacaq? Sənədlərim iş yerindədir. Haçan təşrif buyursan, mən sizin qulluğunuzda hazır. Səhər görüşəcəyimi müəyyən edib ayrılırıq.***

***Səhər günortaüstü iş yerinə keçmiş cəbhəçi ilə üz-üzə oturmuşduq. Dəmir seyfi açıb oradan bir qovluq çıxartdı. Saralmış vərəqlər onun həyat yolunun canlı şahidi kimi dilə gəldi...***

Müharibə və əmək veteranı Tofiq Hüseynov gənc nəslin təlim-tərbiyəsi sahəsində sözün əsl mənasında Fərhad kimi külüng çalıb. Ömrünün 63 ilini fasiləsiz olaraq yeniyetmə və gənc insanların vətənpərvərlik ruhda tərbiyə olunmasına, sağlam, savadlı, gənc istedadların yetişdirilməsinə həsr edib. 1947-ci ildən 2012-ci ilə qədər əmək fəaliyyətini davam etdirib.

1947-1952-ci illərdə Gəncə Müəllimlər Evinin müdiri, 1955-ci ildə Leninqrad şəhərində ali təhsilini başa vurduqdan sonra Gəncədəki 2, 14, 25 saylı orta məktəblərdə müəllim, şəhər Mərkəzi Mədəniyyət evinin direktoru, İnşaat Texnikumunda müəllim və nəhayət 1995-ci ildən 2012-ci ilə qədər Gəncə şəhər Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində bədii rəhbər olub. Bu iş yerindən də təqaüdə çıxıb.

Təqaüdə çıxdıqdan sonra Gəncə şəhər Nizami rayonu Veteranlar Şurasının sədri vəzifəsinə irəli çəkilmişdir. Bu sahədə də bilik və bacarığını ortaya qoyaraq veteran hərəkatında, gənclərlə hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində yaxından iştirak edir. Elə bunun nəticəsidir ki, Respublika Veteranlar Şurasının Bürosu onu dəfələrlə “Fəxri fərman” və başqa dəyərli hədiyyələrlə təltif edib.

Veteran deyir: “- İkinci Cahan savaşı bir çoxlarının həyatını yarımçıq qoydu. Müxtəlif cəbhə xətlərində dəfələrlə ölümlə qarşı-qarşıya gəlmişəm. Azərbaycan xalqının qorxmaz, mərd oğulları başqa millətlərin nümayəndələri ilə çiyin-çiyinə dörd il təcavüzkar düşmənlə üz-üzə dayanmalı oldular.

Təkcə Azərbaycan Respublikasından 700 mindən çox adam döyüşlərə qatıldı. Onlardan çoxu yad torpaqlarda həyatını itirdi. Geri qayıdanlardan əksəriyyəti əlil idi. Hər dəfə ötən illəri xatırlayanda yağılara lənət, ətrafımızda olan daşnaklara nifrət yağdırıram. Sonda qeyd etmək istəyirəm ki, çox şükürlər olsun ki, əsarətdə olan Qarabağı quldurlardan geri ala bildik. Bu qələbə ahıl yaşımda məni çox sevindirdi. Arzum budur ki, yerin köksü bir daha dağlanmasın, göyün üzü tər-təmiz, səmamız aydın olsun. Gələcək nəsillər xoşbəxt və firavan həyata qovuşsunlar...”

***Tofiq müəllimlə necə görüşmüşdüksə, eləcə də ayrılırıq. Yolda öz-özümə fikirləşirdim: doğrudan da yola saldığımız hər gün insan ömründə öz izi, naxışı ilə seçilir, əbədiləşir. Amma veteran ömründə hər söhbət, hər görüş saatının, hər günün öz nişanəsi qalır.***

***Nə olar, qoy yüz yaşlı veteranımızın həyatının bu naxışı əbədi olsun, nizami heç zaman pozulmasın.***